# Türk dillərinə hərtərəfli dəstək missiyyası



Bu günlərdə Qırğız Respublikasının Azərbaycandakı səfirliyində Qırğız Respublikasının Prezidenti yanında Dövlət Dil və Dil siyasəti üzrə Milli Komissiyanın sədri Kanıbek Osmonəliyev, Qırğız Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmanəliyev, Türk Dövlətləri təşkilatı baş katibinin müavini Yerjan Mukaş, "Qırğıztest" Dövlət Qurumunun direktoru Batma Topayeva - Stavinskaya və manasşünas alim, şair, Azərbaycanın Əməkdar jurnalisti, Ç.Aytmatov Akademiyasının fəxri akademiki Adil Cəmilin iştirakı ilə türk xalqlarının ortaq dili və mədəniyyəti ilə bağlı tədbir keçirilmişdir.

Tədbirdə vahid kökə söykənən, sonradan müxtəlif diferensasiyalara məruz qalan ümumtürk dilinin perspektivləri müzakirə olunmuş, bundan sonra ortaq dilimizin və mənəvi mədəniyyətimizin inkişafında türk xalqlarının eyni müstəvidə hərəkətə keçməyinin zərurəti vurğulanmışdır.

Bu istiqamətdə çıxış edən Kanıbek Osmanəliyev, Kayrat Osmanəliyev, Yerjan Mukaş, Batma Topoyeva - Stavinskaya, Adil Cəmil belə görüşlərin türk-turan dünyasına indiki zamanda yeni töhfələr verəcəyinə inamlarını bildirmişlər.

**A.Savalan**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 24 dekabr.- S. 27.**